**Pedaqoji Universitetin Xəbərləri.** Riyaziyyat və təbiət elmləri seriyası – 2025, C. 73, №3, s. 15-24
**Transactions of Pedagogical University.** Series of mathematical and natural sciences – 2025, V. 73, №3, pp. 15-24

***UOT 37.014***

***M.V.Abdullayeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*azeriteacher@yahoo.com*

# RİYAZİYYATIN TƏDRİSİNDƏ BƏXTİYAR VAHABZADƏNİN VƏTƏNPƏRVƏRLİK VƏ MİLLİLİK İDEYALARINDAN İSTİFADƏ

https://doi.org/10.30546/2520-2049.73.3.2025.005

***Açar sözlər:*** *Riyaziyyat, Bəxtiyar Vahabzadə, vətənpərvərlik, milli ideyalar, düz xəttin tənliyi*

“Riyaziyyatın tədrisində Bəxtiyar Vahabzadənin vətənpərvərlik və millilik ideyalarından istifadə” mövzusu üzrə aparılan bu tədqiqatda milli-mənəvi dəyərlərin riyaziyyat dərslərinə inteqrasiyası pedaqoji baxımdan təhlil edilmişdir. Məqsəd şairin vətənpərvərlik ruhunda yazdığı şeirlərin riyaziyyat dərslərində motivasiya və tərbiyəvi vasitə kimi tətbiqini nümayiş etdirməkdir.

Tədqiqat 8-ci sinifdə “İki nöqtədən keçən düz xəttin tənliyi” mövzusunun öyrədilməsi əsasında aparılıb. Təhlil və sintez metodları ilə hazırlanan tapşırıqlarda Qarabağ şəhərlərinin adlarından istifadə edilmiş, “Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir!” misrası motivasiya üçün səsləndirilmişdir. Müşahidələr göstərir ki, bu yanaşma şagirdlərin riyazi anlayışları mənimsəməsini gücləndirir, dərsə marağı artırır və milli-mənəvi dəyərlərin formalaşmasına müsbət təsir göstərir. Beləliklə, riyaziyyatın tədrisində milli ideyaların yaradıcı tətbiqi şagirdlərin həm bilik və bacarıqlarının, həm də şəxsiyyət kimi formalaşmasına xidmət edən səmərəli bir yanaşmadır.

***М.В.Абдуллаева***

# ИСПОЛЬЗОВАНИЕ ИДЕЙ ПАТРИОТИЗМА И НАЦИОНАЛЬНОСТИ БАХТИЯРА ВАГАБЗАДЕ В ПРЕПОДАВАНИИ МАТЕМАТИКИ

***Ключевые слова:*** *Математика, Бахтияр Вагабзаде, патриотизм, национальные идеи, уравнение прямой*

В данном исследовании, проведенном на тему «Использование идей патриотизма и народности Бахтияра Вагабзаде в преподавании математики», с педагогической точки зрения анализировалась интеграция

национально-духовных ценностей на уроках математики. Цель исследования – продемонстрировать применение стихотворений поэта, написанных в духе патриотизма, в качестве мотивационного и воспитательного инструмента на уроках математики.

Исследование проводилось на основе изучения темы «Уравнение прямой, проходящей через две точки» в 8-м классе. В заданиях, подготовленных с использованием методов анализа и синтеза, использовались названия городов Карабаха, а для мотивации читалась строка «Земля, если есть тот, кто умирает за нее, – Родина!». Наблюдения показывают, что такой подход укрепляет усвоение учащимися математических понятий, повышает интерес к уроку и положительно влияет на формирование национально-духовных ценностей. Таким образом, творческое применение национальных идей в обучении математике является эффективным подходом, служащим формированию знаний и умений учащихся, а также их личности.

***M.V.Abdullayeva***

## USE OF BAHKHTIYAR VAHABZADE'S IDEAS OF PATRIOTISM AND NATIONALITY IN THE TEACHING OF MATHEMATICS

***Keywords***: *Mathematics, Bakhtiyar Vahabzadeh, patriotism, national ideas, equation of a straight line*

In this study, conducted on the topic of "Using Bakhtiyar Vahabzade's ideas of patriotism and nationality in mathematics teaching", the integration of national-spiritual values into mathematics lessons was analyzed from a pedagogical perspective. The aim is to demonstrate the application of the poet's poems written in the spirit of patriotism as a motivational and educational tool in mathematics lessons.

The study was conducted on the basis of teaching the topic "Equation of a straight line passing through two points" in the 8th grade. The names of Karabakh cities were used in the tasks prepared using analysis and synthesis methods, and the line "Land, if there is one who dies for it, is the Motherland!" was recited for motivation. Observations show that this approach strengthens students' mastery of mathematical concepts, increases interest in the lesson, and has a positive effect on the formation of national-spiritual values. Thus, the creative application of national ideas in mathematics teaching is an effective approach that serves the formation of students' knowledge and skills, as well as their personality.

## Giriş

Müasir təhsil sistemi şagirdlərdə yalnız fənn biliklərinin formalaşdırılması ilə kifayətlənmir, milli-mənəvi dəyərlərin, vətənpərvərlik və vətəndaşlıq keyfiyyətlərinin də aşılanmasını prioritet hesab edir. XXI əsrin çağırışları fonunda Azərbaycan məktəblərində tədris prosesinin bilikvermə funksiyası ilə yanaşı şəxsiyyətin tərbiyəsinə yönəlməsi mühüm pedaqoji vəzifə kimi dəyərləndirilir. Bu baxımdan tədris olunan bütün fənlərin, o cümlədən riyaziyyatın milli ideyaların, vətən sevgisinin və tarixi yaddaşın təbliği ilə zənginləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan poeziyasında milli kimliyin, vətənpərvərlik ruhunun və mənəvi bütövlüyün simvolu sayılan Bəxtiyar Vahabzadə ədəbi yaradıcılığı ilə bu dəyərlərin formalaşmasında mühüm rol oynamışdır. Onun "Ana dili", "Gülüstan", "Vətənə", "Azərbaycan" kimi əsərləri milli-mənəvi dəyərlərin, azadlıq ideyalarının və vətən sevgisinin aşılanması baxımından pedaqoji potensiala malikdir. Vahabzadənin yaradıcılığı əsasən ədəbi və fəlsəfi aspektlərdən araşdırılsa da, son dövrlərdə onun pedaqoji baxışları və təlimin milli ruhda təşkili ilə bağlı fikirləri tədqiqatçıların diqqət mərkəzindədir.

2022-ci ildə Kaspi.az portalında təqdim olunmuş "Bəxtiyar Vahabzadənin pedaqoji görüşlərinə həsr olunmuş monoqrafiya"da şairin təlimin əyanilik prinsipinə və milli tərbiyəyə verdiyi önəm xüsusi vurğulanmışdır (Kaspi.az, 2022).

Vahabzadənin yaradıcılığı uzun müddət əsasən ədəbi və fəlsəfi aspektlərdən öyrənilmiş, onun pedaqoji baxışları və milli ruhda təlim ideyaları da elmi müzakirələrin mövzusu olmuşdur. Lakin şairin poeziyasının riyaziyyatın tədrisinə inteqrasiyası istiqamətində aparılmış araşdırmalar çox məhduddur. Bu istiqamətdə ilk nümunələrdən biri müəllifi olduğum və 2025-cü ildə nəşr edilən "Riyaziyyat dərslərində şagirdlərə vətənpərvərlik hisslərinin aşılanmasında Bəxtiyar Vahabzadə poeziyasından istifadə" adlı məqalədir. Həmin tədqiqatda riyaziyyat fənninin yalnız məntiqi-analitik bacarıqların formalaşdırılmasında deyil, milli-mənəvi dəyərlərin şagirdlərə aşılanmasında da mühüm vasitə ola biləcəyi elmi-pedaqoji əsaslarla izah edilmişdir. Xüsusilə, riyazi məsələlərin həyatla əlaqəli və kontekstual təqdimatı zamanı milli poeziya nümunələrinin istifadəsi şagirdlərdə vətən sevgisi, milli qürur və mədəniyyətə hörmət kimi dəyərlərin inkişafına müsbət təsir göstərir.

2015-ci ildə Şəki şəhərində keçirilmiş elmi-praktik konfransın materiallarında da Bəxtiyar Vahabzadənin yaradıcılığı və onun tərbiyəvi təsiri məsələləri müzakirə olunmuşdur (shrem.az, 2015). Lakin həmin müzakirələrdə riyaziyyatla əlaqəli inteqrasiya məsələsinə toxunulmamışdır. Bu fakt Vahabzadə poeziyasının qeyri-humanitar fənlərlə, xüsusilə riyaziyyatla əlaqələndirilmiş şəkildə tədqiqinin yeni və aktual bir istiqamət olduğunu göstərir.

Təqdim olunan məqalədə Bəxtiyar Vahabzadənin poeziyasının riyaziyyat fənni ilə inteqrasiyasının nəzəri və praktik imkanları araşdırılır, milli və

vətənpərvərlik ideyalarının riyazi təlim mühitində tətbiqinə dair yeni elmi-pedaqoji yanaşmalar irəli sürülür. Məqalə həm fənlərarası inteqrasiyanın təlim prosesindəki rolunu nəzəri-praktik əsaslarla vurğulayır, həm də milli kimliyin formalaşdırılması və şagirdlərin mənəvi tərbiyəsində riyaziyyatın potensial imkanlarını pedaqoji baxımdan yeni yanaşmalarla izah edir.

## Bəxtiyar Vahabzadənin yaradıcılığında vətənpərvərlik və millilik ideyaları

Bəxtiyar Vahabzadə XX əsr Azərbaycan poeziyasında vətənpərvərlik və milli kimlik mövzularını ən dərindən və təsirli şəkildə ifadə edən aparıcı ədəbi simalardandır. Onun "Vətən", "Ana dili", "Gülüstan" kimi əsərləri milli-mənəvi dəyərlərin, ana dilinin qorunmasının və tarixi yaddaşın yaşadılmasının simvoluna çevrilmişdir. Şairin bu əsərləri yalnız vətənpərvər duyğuların təcəssümü ilə məhdudlaşmır, eyni zamanda milli kimliyin qorunması, ictimai şüurun formalaşdırılması və tarixi yaddaşın dirçəldilməsi baxımından dərin məna və bədii dəyər ifadə edir.

"Vətən" şeirində müəllif vətənin yalnız coğrafi bir məkan deyil, həm də tarixi yaddaş, milli kimlik və mənəvi borc olduğunu vurğulayır. Burada vətənin torpağından çox, onun tarixi keçmişi, dili, adət-ənənəsi və xalqın mənəvi birliyi ön plana çıxarılır (Vahabzadə, 1983).

"Ana dili" şeirində şair dilin sadəcə ünsiyyət vasitəsi olmadığını, onun xalqın mədəniyyəti, dünyagörüşü və milli şüuru ilə birbaşa bağlı olduğunu ifadə edir. Bu əsərdə dilə qarşı olan laqeydlik təkcə fərdi yox, ictimai faciə kimi qiymətləndirilir. Bəxtiyar Vahabzadənin fikrincə, dilinə sahib çıxmayan xalq, öz varlığını da itirməyə məhkumdur (Vahabzadə, 2003).

Bəxtiyar Vahabzadənin əsərlərinin ümumtəhsil məktəblərində şagirdlərə düzgün və məqsədyönlü şəkildə təqdim edilməsi onların mənəvi inkişafı və milli şüurun formalaşmasında mühüm rol oynayır. Bu əsərlər vasitəsilə şagirdlər təkcə sənət və ədəbiyyatın dəyərini anlamağa başlamır, həm də dilə, vətənə, tarixə və milli-mədəni dəyərlərə dair anlayışları daha dərindən mənimsəyirlər. Bu baxımdan, Bəxtiyar Vahabzadənin yaradıcılığı ümumtəhsil məktəblərində təlim prosesinə vətənpərvərlik tərbiyəsinin məzmunu ilə inteqrasiya edilə biləcək zəngin ideya və metodik potensiala malikdir.

## Riyaziyyat dərslərində milli ruhun tərbiyəsi

Müasir təhsil sistemində şagirdlərə yalnız elmi biliklərin deyil, eyni zamanda milli-mənəvi dəyərlərin öyrədilməsi əsas məqsədlərdən biridir. Bu baxımdan, riyaziyyat dərsləri təkcə məntiqi düşüncənin formalaşdırılması ilə məhdudlaşmamalı, həm də şagirdlərin vətənə, millətə bağlılıq hisslərinin inkişafına xidmət etməlidir. Riyaziyyat fənninin tədrisi zamanı milli ruhun aşılanması düzgün yanaşma ilə mümkün və təsirli bir prosesə çevrilə bilər. Məsələn, rasional ədədlər

üzərində aparılan hesablamalarla bağlı tapşırıqlarda Azərbaycanın coğrafi bölgələrinə, tarixi şəxsiyyətlərinə və mədəni irsinə dair məlumatların inteqrasiyası şagirdlərin həm riyazi düşüncə tərzinin, həm də vətən sevgisinin inkişafını gücləndirə bilər. Belə yanaşmalar, şagirdlərin dərsə marağını artırmaqla yanaşı, onların milli kimliklərinin formalaşmasına da imkan yaradır.

Eyni zamanda, ədəbi nümunələrdən, xüsusilə də şairlərimizin yaradıcılığından istifadə dərsin emosional təsirini artırmaqla yanaşı, şagirdlərdə milli kimlik duyğusunu möhkəmləndirir. Bu baxımdan, Bəxtiyar Vahabzadənin poeziyasında yer alan milli və vətənpərvərlik ruhu təlim prosesində istifadə oluna biləcək qiymətli mənbədir. Məsələn, "Vətən" şeirindən (Vahabzadə, 2008) aşağıdakı misralar:

**Çağırır indi bütün milləti imdada Vətən,**
**Dəyişilməz, ay oğul, cənnətə dünyada Vətən!**

Bu tip bədii nümunələrdən təlim prosesində istifadə şagirdlərə riyazi nəzəri biliklərin ötürülməsi ilə yanaşı, milli ideyaların da mənimsədilməsinə şərait yaradır. Burada məqsəd təkcə emosional motivasiya deyil, eyni zamanda şəxsiyyətin vətəndaşlıq mövqeyinin və milli kimliyinin formalaşmasına dəstək olmaqdır. Məsələn, 8-ci sinifdə "İki nöqtədən keçən düz xəttin tənliyi" mövzusunun tədrisi zamanı müəllim dərsin planlaşdırılmasında yalnız riyazi bilik və bacarıqların formalaşdırılması ilə kifayətlənməməli, eyni zamanda bu mövzunun tərbiyəvi imkanlarını da nəzərə almalıdır. Belə ki, dərsin məzmununa B.Vahabzadənin yaradıcılığında əks olunan milli ruh, vətən sevgisi və azadlıq ideyaları məzmun baxımından əlaqələndirilmiş şəkildə inteqrasiya oluna bilər. Dərsin motivasiya, problemin qoyulması mərhələsində şagirdlərin emosional-mənəvi motivasiyasını gücləndirmək məqsədilə V.Bahabzadənin şeirlərindən bir misranı, məsələn, *"Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir!"* - səsləndirməklə şagirdlərdə dərsə maraq yaratmaq mümkündür. Şagirdlərin diqqətini mövzuya cəlb etmək üçün müəllim sinfə aşağıdakı sualla müraciət edə bilər: Gəlin bir anlıq düşünək: əgər Vətəni riyazi dillə ifadə etməyə çalışsaq, bu necə mümkün olardı? Məsələn, Şuşa və Xocalı kimi tarixi və mənəvi baxımdan dəyərli şəhərlər arasında hansı riyazi əlaqə qura bilərik?

Bu sual şagirdlərdə tədqiqat yönümlü düşünmə bacarığını inkişaf etdirməklə yanaşı, həm də onların mövzuya marağına səbəb olacaq. Müəllim sonra problemi təqdim edir: İndi gəlin bu iki mühüm nöqtəni – Şuşa (3; 5) və Xocalı (7; 9) nöqtələrini birləşdirən düz xəttin tənliyini yazaq. Bu yolla həm riyazi bir anlayışı öyrənəcəyik, həm də coğrafi və milli yaddaşımıza bağlı şəhərlər arasında mənəvi bir xətt qurmuş olacağıq. Beləliklə, B.Vahabzadə şeirlərinə inteqrasiya olunmuş dərs formalaşır və yeni mövzu təqdim edilir: Bu günkü dərsimiz "İki nöqtədən keçən düz xəttin tənliyi" mövzusuna həsr olunacaq. Belə inteqrasiya şagirdlərdə təkcə iki nöqtədən keçən düz xəttin tənliyini qurmaq bacarığını inkişaf etdirmir, həm də onların milli-mənəvi dəyərlərə bağlılığını, vətənə sevgi və qürur hisslərini

gücləndirir. Tapşırıqlarda Azərbaycanın müxtəlif bölgələrinin, xüsusilə Şuşa, Xankəndi, Xocalı kimi tarixi və mədəni əhəmiyyətli məkanların koordinatlarından istifadə edilə bilər. Həmçinin, Bəxtiyar Vahabzadənin vətənpərvərlik ruhunda yazılmış şeirlərindən seçilmiş misralar, məsələn, *"Çağırır indi bütün milləti imdada Vətən..."* - dərsdə motivasiya və tərbiyəvi məqsədlər üçün tətbiq oluna bilər.

Beləliklə, bu yanaşma şagirdlərdə həm riyazi təfəkkür, həm də vətəndaşlıq mövqeyi formalaşdırmaq baxımından məqsədəuyğun və effektiv hesab oluna bilər. İki $A(x_1, y_1)$ və $B(x_2, y_2)$ nöqtələri verildikdə, bu iki nöqtədən keçən düz xəttin tənliyi aşağıdakı düsturla ifadə olunur: $\frac{y-y_1}{x-x_1}=\frac{y_2-y_1}{x_2-x_1}$. Bu düsturdan istifadə edən şagirdlər riyazi bilikləri praktik şəkildə tətbiq etməklə yanaşı, milli məzmunlu tapşırıqlar vasitəsilə vətənpərvərlik duyğularını daha dərindən dərk edirlər.

**Tapşırıq 1:** Şuşa (3; 5) və Xocalı (7; 9) nöqtələrindən keçən düz xəttin tənliyini yazın və qrafikini qurun.

Həlli: $x_1=3,\ y_1=5$ və $x_2=7,\ y_2=9$

$$\frac{y-5}{x-3}=\frac{9-5}{7-3}\Rightarrow y-5=\frac{4}{4}(x-3)\Rightarrow y-5=x-3\Rightarrow y=x+2$$

Şuşa (3; 5) və Xocalı (7; 9) nöqtələrindən keçən düz xəttin tənliyi $y=x+2$ -dir. Şuşa (3; 5) və Xocalı (7; 9) nöqtələrindən keçən düz xəttin qrafiki Graph 4.4 proqramından istifadə edilməklə qurulmuşdur (Şəkil 1). Bu qrafik, həm riyazi biliklərin tətbiqini, həm də coğrafi adlar vasitəsilə milli-mənəvi dəyərlərin təlim prosesinə inteqrasiyasını təmin edir.




***Şəkil 1.** Ş(3; 5) və X(7; 9) nöqtələrindən keçən düz xəttin qrafiki*

İki nöqtədən keçən düz xəttin tənliyi riyazi baxımdan verilmiş koordinatları birləşdirən funksional əlaqəni ifadə etsə də, mövzunun mənəvi və tarixi kontekstdə izahı zamanı həmin nöqtələrin – Şuşa və Xocalı şəhərlərinin koordinatları milli-mənəvi dəyər daşıyan məkanlar kimi seçilməsi dərsin tərbiyəvi əhəmiyyətini artırır. Belə olan halda, qurulan düz xətt yalnız riyazi elementlər arasındakı əlaqəni deyil, Azərbaycan xalqının milli yaddaşında iz qoymuş coğrafi və tarixi məkanlar arasındakı mənəvi bağlılığı da simvolizə edir.

Şuşa (3; 5) və Xocalı (7; 9) nöqtələrindən keçən düz xəttin tənliyi üzərində işləyərkən şagirdlər təkcə riyazi biliklərini tətbiq etmir, eyni zamanda Azərbaycanın işğaldan azad edilmiş şəhərləri haqqında məlumat əldə edirlər. Bu riyazi model həm coğrafi məkanları, həm də tarixi-mənəvi yaddaşı birləşdirən bir vasitəyə çevrilir. Görkəmli şairimiz Bəxtiyar Vahabzadənin

**"Ey Vətən oğlu, düşün, bil ki, sənindir bu Vətən,**
**Sabahın, həm bu günün, həm dünənindir bu Vətən.**
**Sənin öz dövlətin, öz millətin, öz cəddin var,**
**Vətən uğrunda ölənlər ölümündən doğular"** –

misralarının (Vahabzadə, 1992) dərsdə səsləndirilməsi təlimin tərbiyəvi məqsədini gücləndirir və şagirdlərdə vətən sevgisinin formalaşmasına imkan yaradır.

**Tapşırıq 2:** Xankəndi (2; 4) və Bakı (6; 10) nöqtələrindən keçən düz xəttin tənliyini yazın və qrafikini qurun.

Həlli: $x_1 = 2,\ y_1 = 4$ və $x_2 = 6,\ y_2 = 10$

$$\frac{y-4}{x-2} = \frac{10-4}{6-2} \Rightarrow y-4 = \frac{3}{2}(x-2) \Rightarrow y-4 = \frac{3}{2}x-3 \Rightarrow y = \frac{3}{2}x+1$$

Xankəndi (2; 4) və Bakı (6; 10) nöqtələrindən keçən düz xəttin tənliyi $y = \frac{3}{2}x+1$ kimi olacaq.




***Şəkil 2.** X(2; 4) və B(6; 10) nöqtələrindən keçən düz xəttin qrafiki*

Şəkil 2 -də (2; 4) və (6;10) nöqtələrindən keçən düz xəttin qrafiki təsvir olunmuşdur. Qrafikdə hər iki nöqtə koordinat müstəvisində işarələnmiş və bu nöqtələri birləşdirən düz xətt parçası çəkilmişdir.

Xankəndi (2; 4) və Bakı (6; 10) nöqtələrindən keçən düz xəttin tənliyi riyazi cəhətdən iki nöqtəni birləşdirən xətti ifadə etsə də, bu tapşırıq yalnız riyazi biliklərin tətbiqi ilə məhdudlaşmır. Bu tapşırıq vasitəsilə şagirdlər Azərbaycanın coğrafi vahidləri barədə düşünür, Xankəndi və Bakı kimi şəhərlərin tarixi və ictimai əhəmiyyətini xatırlayırlar. Bu zaman Bəxtiyar Vahabzadənin

**Ey Azərbaycanımız, türkün oğuzlar Vətəni,**
**Ər oğullar, ər igidlər, kişi – qızlar Vətəni,**
**Sənin haqqındır azadlıq, sənin eşqindir iman,**
**Tapmar haqqa və insanlığa haqqdan doğulan.**
**Bəşərin dərdini öz dərdi bilib millətimiz.**
**Bizim öz niyyətimizdən doğub hürriyyətimiz.**

misralarının (Vahabzadə, 1992) təlim prosesinə daxil edilməsi mövzunun tərbiyəvi əhəmiyyətini artırır. Beləliklə, şagirdlərə təkcə düz xəttin tənliyini qurmaq bacarığı formalaşdırılmır, eyni zamanda milli kimlik və vətənpərvərlik duyğuları da aşılanır.

Belə bir yanaşma riyaziyyat dərslərində milli-mənəvi dəyərlərin istifadəsi və məzmunla əlaqələndirilməsi baxımından mühüm pedaqoji əhəmiyyət kəsb edir, eyni zamanda şagirdlər iki nöqtədən keçən düz xəttin

tənliyini yazmaq və qrafikini qurmaq bacarığı ilə yanaşı, Şuşa, Xocalı, Xankəndi və Bakı kimi şəhərlərin Azərbaycanın tarixindəki və milli şüurundakı rolunu da dərk edirlər. Beləliklə, Bəxtiyar Vahabzadə poeziyasından istifadə ilə zənginləşdirilmiş riyaziyyat dərsləri təkcə elmi biliklərin ötürülməsini deyil, həm də şəxsiyyətin milli-mənəvi tərbiyəsini təmin edən səmərəli pedaqoji vasitə rolunu oynayır.

## Nəticə

- Bəxtiyar Vahabzadənin poeziyasında yer alan vətən sevgisi və milli kimlik kimi mövzuların riyaziyyat dərslərində tətbiq edilməsi şagirdlərdə həm dərsə maraq oyadır, həm də mövzulara emosional və mənəvi yanaşmanı gücləndirir.
- Belə inteqrativ yanaşma şagirdlərin riyazi bilikləri daha dərindən mənimsəməsinə və eyni zamanda vətənpərvərlik hisslərinin inkişafına müsbət təsir göstərir.
- Riyaziyyat və ədəbiyyat fənləri arasında qurulan məntiqi əlaqə şagirdlərin tənqidi və yaradıcı düşünmə bacarıqlarını təşviq edir, fənlərarası əlaqənin gücləndirilməsinə şərait yaradır.
- Bu yanaşma nəticəsində şagirdlər yalnız riyazi bilik və bacarıqlara deyil, eyni zamanda milli-mənəvi dəyərlərə yiyələnirlər. Beləliklə, təlim prosesi sadəcə bilik ötürən deyil, şəxsiyyət formalaşdıran bir prosesə çevrilir.

Beləliklə, B.Vahabzadənin vətənpərvərlik və millilik ideyaları yalnız ədəbiyyat dərsləri üçün deyil, təhsil sisteminin bütün sahələri üçün mühüm resurs ola bilər. Riyaziyyat dərslərində bu irsdən bəhrələnmək şagirdlərin həm intellektual, həm də mənəvi inkişafına xidmət edir. Riyaziyyat dərslərimizdə B.Vahabzadə poeziyasından istifadə edilməsi milli dəyərlərə bağlı, intellektual və sosial baxımdan yetkin vətəndaşlarının yetişdirilməsi üçün əhəmiyyətli bir addımdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2024). Ümumi təhsil müəssisələri üçün Riyaziyyat fənni üzrə təhsil proqramı (kurikulumu) (I-XI siniflər) Bakı.
2. *Abdullayeva, M.* (2023). Riyaziyyat dərslərində şagirdlərə vətənpərvərlik hisslərinin aşılanmasında Bəxtiyar Vahabzadə poeziyasından istifadə. 5. Beynəlxalq Bəxtiyar Vahabzadə Türk Dünyası Tarix, Mədəniyyət və Ədəbiyyat Konqresi materialları, Şəki, Azərbaycan. https://www.scienceazerbaijan.org

3. *Vahabzadə, B.* (2004). Seçilmiş əsərləri. İki cilddə, I və II cildlər. (Poemalar). Bakı, «Öndər nəşriyyat». 328 s. və 320 s.
4. *Vahabzadə B.* (2008). Əsərləri. On iki cilddə, VI cild (1990-1999). Bakı, «Elm».738 s.
5. Beynəlxalq Bəxtiyar Vahabzadə Türk Dünyası Tarix, Mədəniyyət və Ədəbiyyat Konqresi. (2023, 16–17 avqust). Şəki/Azərbaycan. // Konfrans materialları. Ankara: İKSAD Publishing House. https://iksadkongre.org/
6. *Bəşirov, K.* (2015). Bəxtiyar Vahabzadənin pedaqoji görüşlərinə həsr olunmuş monoqrafiya. https://www.kaspi.az/az/bextiyar-vahabzadenin-pedaqoji-gruslerine-hesr-olunmus-monoqrafiya
7. İKSAD və Bakı Avrasiya Universiteti. (2024, 15–17 Avqust). VI Beynəlxalq Bəxtiyar Vahabzadə: Türk Dünyası Tarix, Mədəniyyət və Ədəbiyyat Konfransı materialları. Lerik, Azərbaycan. https://baau.edu.az
8. *Vahabzadə B.* (1992). Vətən marşı. https://melumatlar.az/blog/16095/veten-marsi-bextiyar-vahabzade


Redaksiyaya daxil olub 09.04.2025